# KİTABİ – DƏDƏ QORQUD ABİDƏSİNDƏ AİLƏ TƏRBİYƏSİ



*Yusif QAZIYEV,*
*pedaqogika üzrə elmlər doktoru,*
*Əməkdar müəllim*

*(Əvvəli ötən saylarımızda)*

Dastanda deyilir:

«Oğuz yidinin öygəki qapardı, qılıcın çıqardı, yeri çaldı-kərtdi. Ayıtdı kim, yer kibi kərfiləyin, topraq kibi savrılayın qılıcıma toğranayın, oxuma sancılayın, oğlum toğmasun, toğarsa, on günə varmasun, bəg babamın, qadın anamın yüzin görmədin bu gərdəgə girərsəm!» - dedi. Evini çözdi. Qaytabanın bozlatdı, qaraquçın kişnətdi. Dün qatdı köçdiz. Yedi gün yedi gecə yortdı. Oğuzun sərhədinə çıqdı. Çadır dikdi. Qanturalı aydır:

«Hey qırq eşüm, qırq yoldaşım!
Qurban olsun sizə mənim başım!
Həq təala yol Verdi, vardım
Ol üç canvəri öldürdüm.
Sarı tonlu Selcan xatunı aldım-gəldim.
Xəbər eylən, babam mana qarşu gəlsün!» - dedi (D – 190). Beləliklə, qayğılar, fikirlər, təsəllilər, nərahatlıqlar sovdu.

«Babası oğlancuğın gördi, Allaha şükürlər eylədi. Oğlilə, gəlinlə Qanlı qoca Oğuza girdi. Gög ala görklü çəmənə çadır dikdi. Atdan-ayğırdan, dəvədən buğra qoyundan qoç qırdırdı. Dügün etdi. Qalın Oğuz bəglərin ağırladı. Altunlıca günlügin diküb. Qanturalı gərdəyinə girüb, muradına-məqsudına irişdi (D – 200).

Oğuzlar söz sahibi olmuşlar. Ağızdan çıxan sözə əməl edirdilər. Ona görə onlarda and içmək və qarğış müqəddəs bir məhvum sayılırdı. Qanturalının yuxarıdakı and monoloqu onun sonrakı fəaliyyəti ilə düz mütənasibdir. O, andının yiyəsi olur və andına sadiq qalır. Oğuzun qılıcı onun sədaqət rəmzi olmuşdur. Qanturalı «qılıncıma doğranayım» deməklə andın sədaqətini bildirir.

Oğuzlarda qadın və kişilər eyni hüquqa malik olmaqla əməllərinə görə Oğuz igidi sayılırdı. Oğuzlar qız uşağını da, oğlan uşağını da eyni məhəbbətlə sevirdilər. Yuxarıda deyildiyi kimi Bayındır xanın divanında Baybura qız diləyir, Baybörə isə oğlan diləyir. Məclisdə oğlu olana ağ çadır, qızı olana qırmızı çadır qurmuşlar. Bu rənglər xəbər verir ki, Oğuzlarda zərif cins daha hörmətlə tutulurmuş.

Lakin ata nüfuzu üstün olmuşdur. Oğlan uşağı nəsil davamçısı kimi əziz tutulurdu. Dastanın digər boylarında da andlar mövcuddur: Bularda ən dəhşətli and «oğlum doğmasın» andıdır. Oğuz söz sahibi olmaq üçün ən ağır anda – varizsiz qalmağa and içir.

Dastanın boylarından aydın olur ki, ata-oğul münasibətlərində heç bir ixtilaf yoxdur. Olsa da o mehribanlıqla aradan qalxır. Ata-oğul arasında heç bir gizli söz və sirri olmur. Bu da nəsillərin mənəvi birliyinə, mənəvi bütövlüyünə törəmənin kök üstündə ucalmasına gətirib çıxarır.

Dastanda gəlin-qaynana qarşı durmasına rast gəlinmir. Gəlinin sədaqəti, gəlinin qayınata-qayınananı öz ata-anasından yaxşı görməsi gerçəkliyi Banuçiçəyin, Boyu uzun Burla xatunun, Dirsə xan xatununun, Dəli Domrul xatununun şəxsində görünür və yeri gəldikcə bu qarşılıqlı ehtiramın oğuz elində gözəlliyi gözə çarpır.

Dastan boylarında Selcan xatunun xüsusi igidlikləri mövcuddur. Onun igidlikləri digər qadınlardan fərqlənir. Dastanda (VI boy) Qanturalının obrazında Oğuz qadınının necə olması haqqında belə danışılır: «Baba, mən yerimdən turmadın ol turmuş ola! Mən qaraquc atıma binmədim ol binmiş ola! Mən qanlu kafər elinə varmadan ol varmış, mana baş gətürmüş ola!» - dedi (D – 171). Qanturalının bu sözlərinin haradan gəldiyini bilmək çətin deyildir. Qeyd edilən qadın xasiyyəti, qadın bacarığı Oğuz qadınlarının həyat fəaliyyətlərində mövcud idi. Bu kimi qadınları Qalın (İç və Dış Oğuz) Oğuzda tapmaq olardı. Ancaq Qanturalının atası Qanturalı qoca Trabzon əyalətinə gedərkən gördüyü bir epizodu oğluna danışır: «Məkər Trabzon təkurının bir əzim-görklü məhbub qızı vardı. Sağına-soluna iki qoşa yay çəkərdi. Atduğı ox yerə düşməzdi. Ol qızın üç canvər qalınğılı – qaftanlığı vardı. «Hər kim ol üç canvəri basa-yensə, öldürsə, qızımı ona verirəm» deyü eyləmişdi. Basmasa, başın kəsərdi. Böyəliklə, otuz iki afər bəginün oğlunun başı bürc bədənində kəsilib asılmış idi. Ol üç canvərin biri ağan aslandı, biri qara buğaydı, bir dəxi qara buğra idi» (D – 173).

Nəhayət, Qanturalı Trabzona gedir, qalib gəlir Sarı donlu Selcan xatunu alıb gətirir. Qanturalı Oğuz sərhəddinə çatanda səfalı bir yerdə çadır qurdurur və igidlərini atasına muştuluğa göndərir. Bu zaman Qanturalını yuxu tutur.

Yeri gəlmişkən, Trabzon Təkuru qızının verilməsinə peşman olur. 600 kafər seçib qızın dalısıca göndərdi ki, qızı geri qayıtsın. Kafirlər gecə-gündüz yol edib Oğuz sərhəddinə çatdılar. Selcan xatun uzaqdan gələn atlıların kim olduğunu hiss etdi, atını minib Qanturalını oyatmağa başladı:

«Qafillə görklü başın kəsilmədən,
Alca qanın Yer üzünə dökülmədən,
Yağı getdi, düşmə irdi,
Nə yatursan qalqğıl!» (D – 192).

Vuruşma başlayır, yağılara qalib gəlirlər. Dastanda deyilir: «At saldı, qırımın basdı. Qaçanın qovmadı. «Aman» deyəni öldürmədi. Elə sandı kim, yağı basıldı. Qılıncının balçağı qan odaya gəldi. Qanturalıyı bulmadı» (D – 194).

Bu anda iki nəfərin – qayınatanın və qayınananın gəldiyini görür. Onlar o, hərbi paltarda döyüşə hazır vəziyyətdə qarşılayır, onlara otağı göstərib, özü dərənin içində tozun gah qalxıb, gah sindigi yerə çapır. Qanturalının atının oxlandığını, özünün göz qapağının yaralandığını görür. Selcan xanım Qanturalı mindiyi atın tərkinə mindirir, odasına üz çevirir.

Lakin Qanturalı atın tərkində fikirləşir ki, bu minvalla Oğuza gedəndə Oğuzu ala gözlü qızı, gəlini bu yadelli gəlinin hünərlərini bilə, hər kəs bu haqda bir söz söyləyə, gəlin də öyünə ki, «Qanturalı zəbun oldu, at ardına aldım çıxardım», (D – 197), onda halım nə olar? Qanturalı Selcan xatuna deyir: «Gözüm döndü, könlüm getdi, öldürəm səni» (D - 197).

Qanturalının bu sözündən sonra iki sevgi arasında nərazılıq döyüşə çevrildi. Onlar bir-birinə ox atmalı oldular» (yenə orada). Qanturalı dedi: «Qızların yolu əvvəldir, əvvəl sən at! – dedi. Qız oxu atır Qanturalının başından bit ayağına düşür. Selcan xatunun bu qabülliyyətini görən Qanturalı qızı qucaqlayıb barışdılar. Qanturalı başa düşdü ki, qız onu bədənini istədiyi yerindən vurub öldürə bilərdi. O, qızın ona qarşı məhəbbətini dərk etdi. Bundan sonra onlar toylarını etdilər. Nəticədə Qanturalının arzu etdiyi qız onun üç sınağından çıxdı.

Yuxarıda deyildiyi kimi – «Baba, mən yerimdən turmadın, ol turmuş ola! Mən qaraquc atıma binmədin ol binmiş ola! Mən qanlu kafər evinə varmadan ol varmış, mana baş gətürmüş ola!» - dedi (D – 171).

Beləliklə, məhəbbət ailəni yaradır və yaşdır.

Burada bir şey də maraqlıdır ki, Qanturalının arzu elədiyi qızı tapdısa bu arzu sonrakı həyat proseslərində xoşagəlməz hadisələrlə rastlaşdılar; məqsədə nail olduqdan sonra, baş verən faciələr – atının və özünün yaralanması, sevgisi Selcan xatunla duelə çıxması kimi xoşagəlməz hadisələr sanki qarğış idi. Atalar burada demişdir: «Niyətin haraya olarsa, mənzilin də ora olar. O, niyət etdi ki, sevdiyi qız, ondan tez qalxsın, ondan tez atlansın, ondan tez düşmənlə qarşılaşsın, ondan tez düşmən başı kəssin. Bu arzular çin olsa da, həyat təhlükələri baş verdi.

Təhlükəli hadisələrdən sonra Qanturalı Selcan Xatunu qucaqlayıb barışır. Lakin Selcan xatuna qarşı Qanturalın qəlbində gizli dayanan, ürəyində saxladığı şəfqət, məhəbbət və sədaqət duyğuları barışıqdan sonra açılır:

«Yalab-yalab yalabıyan* incə tonlum!
Yer basmıyıb yüriyən,
Qar üzərinə qan tammış
kibi qızıl yanaqlım!
Qoşa badam dar ağızlum!
Qələmçilər çaldığı qara qaşlım!
Qurması qırq tutam qara saçlım!
Aslan uruğı**, sultan qızı,
öldürməgə mən səni qıyarmıdım?!
Öz canıma qıyam, mən sana qıymıyam;
mən səni sınardım, - dedi (D – 199).

Belə tərifləmə, öymə Oğuz igidlərində və xatunlarında mövcud olmuşdur. Ancaq Qanturalının bu dərinlikli tərifinə digər boylarda rast gəlinmir; heç kəs arvadına bu qədər mehribanlıqla, bu qədər məhəbbətliklə tərif verməmişdir.

Bununla yanaşı belə qəlbən bağlılıq, sevgi və məhəbbəti uca tutmaq dastanlarda əks hallarda qarşılıqlı olmuşdur. Bu baxımdan Selcan xatunda Qanturala tay idi. Dastanda Selcan xatun deyir:

«Qalqubanı yerimdən turar idim,
Yelisi qara Qazlıq atuma binərdim,
Babamın ağ-ban evindən çıqardım.
Arqu beli, Ala tağı ovlar idim,
Ala gen sığın-keyik qovar idim.
Tarıyanda bir oxla nəmlərdim?
Dəmrənsuz oxla yigit, səni sınar idim!
Öldürməgə, yigidim, mən səni qıyarmıdım?! – dedi (D – 200).

***7. «Kitabi-Dədə Qorqud» abidəsində qardaş məhəbbəti mühüm münasibətlərdən olmuşdur.***

Ailə tərbiyəsinin gedişində qardaş məhəbbəti xüsusi yer tutur. Belə ki, ailənin oğul övladı valideyn tərəfdən əziz tutulur. Bu hər şeydən əvvəl ona görədir ki, oğul alənin, nəslin davamçısıdır, valideynin tutarlı köməkçisi, valideynin qocalıq dövründə himayədarı, sahibi və məsul xidmətçisidir. Oğul bacı üçün arxa öyün yeri və ailə yardımçısıdır. Qardaş qardaşın arxası, dirəyi, ümid və şəfaqət, sevinc və fəxridir.

Qardaşa məhəbbət, qardaşa sədaqət bacı və qardaş tərəfindən xalqımızın tarixində həmişə mövcud olmuşdur. Bu tarixi ənənə «Dədə Qorqud» boylarında çox ciddi sürətdə rast gəlirik. Bu barədə məşhur «Dədə Qorqud» tədqiqatçısı Pənah Xəlilovun «Kitabi – Dədə Qorqud» - İntibax abidəsi» kitabında geniş yer verilmişdir. Müəllif yazır:

«Bu motiv də «Dədə-Qorqud» boylarında parlaqdır. Sədaqətli qardaş kimi ən çox adı çəkilən Qaragünə həmişə Qazanın xeyir-şərinə birinci gəlir, sonra onun oğlu, Qazanın kürəkəni Qara Budaq qulluğa hazır olur. Aruz oğlu Basat böyük qardaşı Qıyan Səlcuqun ölümünə yas saxlayır, qardaşının intiqamı üçün Təpəgözün üstünə gedir. Cavan qardaşlar həmişə bir-birindən ayrılmaz olurlar. «Dədə Qorqud»da əli qardaşı övladının qanına bulanmış bircə igidin – Alp Rüstəmin adı çəkilir ki, o da öz qardaşı uşaqlarını öldürdüyünə görə özünü zəlil sayır və «Dözən oğlu» ləqəbi daşıyır (50).

Bütün bu istəkli qardaşların mehribanlığı dastanın boylarına səpələnmiş epizodlar olub xüsusi süjetə girmir. Qardaşın qardaşa məhəbbəti xüsusi mövzu kimi «Uşun Qoca oğlu Səgrəyin boyunda işlənilmişdir» (50).

Dastanın X boyunda (Uşun qoca oğlu Səgrək boyını bəyan edir») qardaşı qardaş uğrunda fədakarlıq göstərir və onun uğrunda canından keçməyə hazır olduğunu bildirir.

Hadisə belə vaqe olur: «Bir gün yolı bir dərnəgə uğradı, qondılar. Yemək-içmək etdilər. Səgrək məst oldu. Tışra ayaq yoluna çıqdı. Gördi kim, öksüs oğlan bir qızanı çəkişür. «Mərə noldınız?» deyü bir şillə birinə, bir şillə birinə urdu. Əski tonın biti, öksüz oğlanın dili acı olur. (Köhnə donun biti, yetim oğlanın dili acı olur). Biri aydır: «Mərə, mizim öksüzligimiz yetməzmi, bizi niyə urarsan? Hünərin var isə, qardaşın Əlincə qələsində əsirdir, var, anı qurtar!» - dedi» (D – 256).

---

*(Davamı var)*